



Çox maraqlı görüşə dəvət almışdıq Hacıqabul şəhərinə. Poeziyasevərlər şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfli ilə görüş düzənləmişdilər. Şairin 70 yaşının tamamı və "Xəzanda yaz gülləri" kitabının təqdimat mərasimi münasibətilə keçirilirdi bu maraqlı tədbir. İnsanların görkəmli şair və yazıçılarla, xüsusilə sanballı əsərləri ilə sənət dünyasında öz möhürünü vurmuş ədiblərlə görüşmək istəyi təqdirolunan və gərəkli tendensiyadır. Vaxtilə rayonlarda, universitetlərdə belə görüşlərin təşkilinə çox şahidlik etmişik. Bu təmaslar insanlara mənəvi baxımdan rahatlıq gətirir, onları qayğılardan bir qədər uzaqlaşdırır və təbii ki, əsasən maarifləndirir. Kaş yenidən ənənəyə çevriləydi!

...Əli Rza müəllimlə görüş Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Hacıqabul Rayon Komitəsinin sədri Kifayət xanım Əmirbəyovanın təşəbbüsü ilə baş tutmuşdu. Tədbirə dəvət olunanlarsa rayon ictimaiyyətinin ziyalı kəsiminin təmsilçiləri idi. Əsasən müəllimlərdən ibarət olan tərkibin içərisində Əli Rza Xələfli ilə birlikdə 50 il öncə Azərbaycan Pedaqoji İnstitutunu (indiki ADPU) bitirmiş tələbə və qrup yoldaşları da var idi. İndi ömürlərinin ahıllıq çağlarına yetişən bu tələbə dostların görüşə görə nə qədər sevincli anlar yaşadığının tamaşaçısı olmaqsa ayrı bir aləm idi. Qonaqlar və rayondan tədbirə gələnlərin qarşılıqlı tanıtımının etmək də elə artıq təqaüddə olan müəllimə, yazarın qrup yoldaşı olmuş Balaxanım Ələsgərovanın boynuna düşdü.

*"Cəmiyyətə töhfələr bəxş etməkdən heç vədə usanmamışam"*

Sonra tədbirin mahiyyəti və təşkilatçıların fədakarlığı barədə minnətdarlıq hissilə söz açan Əli Rza Xələfli öncə bu görüşlə ona gənclik çağlarındakı ovqatını bəxş etdiklərinə görə təşkilatçı və iştirakçılara öz təşəkkürünü bildirdi. Hər sözündən xüsusi sevinc hissi keçirdiyi duyulan yazar keçmiş zamanlara ekskurs etdikdən sonra söylədi ki, "özünüifadə imkanlarına sahib olan hər bir insan ailə üçün də, cəmiyyət üçün də çox gərəkli bir varlıq kimi yetişə bilir. Onlar yaxşı mənada yə elə yaxşı istiqamətdə cəmiyyəti də, ailəni də idarə etmək imkanına qadir olurlar. Bu keyfiyyətin arxasındasa mütləq fədakarlıq amili dayanır. Fədakarlıqsa çox nadir əlamətdir. Mən də imkanım daxilində həyatda gücümü və bacarığımı cəmiyyətin rifah halına töhfələr bəxş etməkdən heç vədə əsirgəməmişəm, usanmamışam. İstəklərimi, niyyətimi gerçəkləşdirmək üçün daim çalışıb, hətta auditoriyamı genişləndirərək müəllimlikdən mətbuat aləminə sıçramışam ki, sözümü daha çox insanlara çatdıra bilim. Bu minvalla sizin indi xüsusi rəğbətlə məni dəvət edib yazdıqlarımı dinləmək istədiyiniz yaradıcılıq yolunu seçmişəm. Kimin hansı yolla gedəcəyini isə onun öz düşüncəsi müəyyənləşdirir".

Ə.Xələfli çıxışında həmçinin təhsil işçilərinə xitab edərək onlara Azərbaycanın gələcəyinin müstəqillik düsturunu yazacaq yeniyetmə və gəncləri yetişdirdiklərinə görə öz təşəkkürlərini çatdırdı və bu pedaqoqların sırasında zamanında onunla birgə ali məktəb skamyası arxasında əyləşən tələbə yoldaşlarının olmasına görə xüsusi məmnunluq hissləri yaşadığını söylədi.

*"Şəhriyar ruhlu şair"*

Əli Rza Xələflinin tələbə yoldaşlarından olan filologiya elmləri üzrə fəlsəfə doktoru, ədəbi tənqidçi, şair-publisist Əkbər Əlioğlu yubilyarın poeziyasını cənublu şairimiz Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması ilə müqayisə etdi, konkret faktlarla hər iki yaradıcılıq nümunələri arasında paralellər apardı, onların eyni folklor nümunələrinə, eyni mənəvi dəyərlərə söykəndiyini dilə gətirdi. Natiq eyni zamanda Ə.Xələflinin redaktorluğu ilə çıxan "Kredo" qəzetinin dövri mətbuatın salnaməçilik tarixində spesifik yeri olduğunu da diqqətlərə çatdırdı.

Şairin tələbə yoldaşı və dostu, Qarabağ Savaşının veteranı İsmayıl Həkimli isə öz çıxışında Əli Rza Xələfli ilə dostluq-yoldaşlıq tarixindən xatirələri yada saldı, yubilyarın mərhum atası Zal kişinin onları qonaq apararaq ayaqları altında niyə məhz qara qoç kəsdiyinin məna çalarlarını dilə gətirdi. O, həmçinin Zal kişinin ancaq xüsusi hallarda təkrarladığı "Gonül (könül - N.Z.) evindən sevinəsiniz!" ifadəsini xatırlatdı. Ə.Xələfli ağsaqqalın bu sözü deməklə əslində "Allahdan sevinəsiniz" anlamını ortaya qoyduğunu bildirdi.

Sonra çıxış edən digər tələbəlik dostu, filoloq Vilayət Ağayev şairin onların tələbəlik illərinin bəzi detallarından bəhs edən "Xəzanda yaz gülləri" kitabı barədə söz açdı. Tədbir sanki "çıxışlar yağışına" qərq olmuşdu. Əksəriyyəti filoloq olan müəllimələr həvəslə bir-birinin ardınca Ə.Xələfli yaradıcılığından bəhs edirdilər.

*Üzü Qarabağa*

Balaxanım müəllimə Xələfli yaradıcılığından bir neçə nümunə söylədikdən sonra müəllifin özünün ifasında "Üzü Qarabağa" şeirinin səsləndirilməsində israr etdi.

Şeiri dinlədikdən sonra da daha artıq coşqu ilə davam edən görüşdə müəllimlər Ələsgər Ələkbərov, Reyhan Nuriyeva, Zenfira Ələkbərova, Gülüstan Almazova, Lətifə Hüseynova, Zərəngiz Abbasova, Xədicə Abbasova, Samirə Ələkbərova, Nisə İsmayılova, Gülüstan Almazova, Aidə Hüseynova, Mədəniyyət işçisi Maya Mehdili, Gülüstan müəllimə və başqaları çıxış edərək şairə yeni-yeni yaradıcılıq uğurları və bu uğurları reallaşdıracaq uzun ömür arzuladılar, şeir nümunələri səsləndirdilər.

Sonda tədbirin təşkilatçısı, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Hacıqabul Rayon Komitəsinin sədri Kifayət Əmirbəyova çıxış edərək ürək sözlərini söyləməklə bərabər, bundan sonra analoji maarifçilik tədbirlərinin rayon ictimaiyyəti və məktəb şagirdlərinin iştirakı ilə mütəmadi davam etdiriləcəyini bildirdi.

Tədbir-görüşün sonunda xatirə şəkilləri çəkdirildi.





# HACIQABUL ZİYALILARI ƏLİ RZA XƏLƏFLİ İŞIĞINDA

***"Kimin hansı yolla gedəcəyini onun öz düşüncəsi müəyyənləşdirir"***

**Əli Rza XƏLƏFLİ**














***Nəzirməmməd ZÖHRABLI***